bölmə

11

# Canlıların mühitə uyğunlaşması

Bütün canlıların ehtiyaclarını ödəməyə və yaşadıqları mühitdə sağ qalmağa imkan verən quruluş və davranış uyğunlaşmaları var.
Bu uyğunlaşmalar orqanizmin çoxalmaq üçün kifayət qədər uzun müddət yaşamasına kömək edir.



Qış dövründə mühitin əlverişsiz şəraitindən qorunmaq üçün Alyaska meşə qurbağalarının bədənlərinin 60 faizi donur. Nəfəs almır, ürəkləri döyünmür və onların aktiv həyat tərzi dayanır. Bu onlara 62 dərəcə şaxtaya tab gətirməyə imkan verir. Yazda isə əlverişli şərait olduqda o "əriyir" və qurbağa yenidən öz fəal həyatını davam etdirir.

- **Sizcə, nə üçün arı, kəpənək və milçəklər çiçəklərə qonurlar?**
- **Pinqvinlər və kaktuslar təbii mühitlərində necə yaşaya bilir?**
- **Necə düşünürsünüz, bir çox heyvanın tük örtüyünün rəngini dəyişməsinin onların sağ qalması üçün nə kimi əhəmiyyəti vardır?**

## Bölmədə öyrənəcəksiniz

- İsti, soyuq, rütubətli və quru mühitlərdə yayılmış bitki və heyvanlar yaşadıqları mühitə uyğunlaşır
- Maskalanma və mimikriya heyvanlara təhlükələrdən qorunmağa imkan verən uyğunlaşmalardır
- Canlılar yaşayış mühitindəki gözlənilməz dəyişikliklərə uyğunlaşa bilmədikdə onların sayı azalır və ya nəsli kəsilmək təhlükəsi ilə qarşılaşır